Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU
SIGMA

**10-cu Xülasə** Yanvar 2011-ci il

**Dövlət satınalmaları**

# Dövlət satınalması prosedurları hansılardır və onlardan nə vaxt istifadə edilə bilər?

**MÜNDƏRİCAT**


- Müsabiqə prosedurlarının əsas növləri
- Əsas müsabiqə prosedurlarından nə vaxt istifadə edilə bilər?
- Müqavilə haqqında bildirişin dərc olunması ilə qapalı prosedur
- Öhdəliklərin məhdudlaşdırılması


EUROPEAN COMMISSION
OECD BETTER POLICIES FOR BETTER LIVES

www.sigmaweb.org
Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya Sigma proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

Dövlət satınalmalarında əsas prezumpsiya bundan ibarətdir ki, müəyyən növü və dəyəri təmsil edilən satınalma müqavilələri elanın verilməsini ehtiva edən müsabiqə proseduru ilə təltif edilməlidir, yəni bu prosedur açıq, ədalətli şəffaf olmalı, bütün namizədlər və iddiaçılar üçün bərabər imkanlar təmin etməlidir. Yalnız məhdud saylı şəraitlər çərçivəsində satınalmanın açıq müsabiqə keçilmədən təmin edilməsinə icazə verilir.

Direktivə əsasən, başlıca satınalma müsabiqəsi prosedurları açıq prosedur, rəqabət dialoqu proseduru, məhdud iştiraklı prosedur və müqavilə haqqında bildirişin əvvəlcədən dərc edilməsi ilə qapalı prosedurdur.

Açıq prosedur və məhdud iştiraklı prosedur heç bir şərtin ödənilməsinə ehtiyac qalmadan istifadə edilən bilən, üstünlük verilən prosedurlardır. Rəqabət dialoqu proseduru və müqavilə haqqında bildirişin əvvəlcədən dərc edilməsi ilə qapalı prosedur yalnız müəyyən edilmiş şərtlər ödənildikdə istifadə edilə bilər. Direktivdə həmçinin yaşayış komplekslərinin subsidiyalaşdırılmış inşa edilməsi məqsədini daşıyan işlərin təminatı üzrə müqavilələrə, ictimai işlərin təminatı üzrə konsessiya müqavilələrinə, eləcə də layihələndirmə müsabiqələrinə tətbiq edilə biləcək xüsusi prosedurlar müəyyən edilir.

Direktiv bu müsabiqə prosedurlarından hər hansından istifadə edən satınalan təşkilatın izləməli olduğu prosesi müəyyən edir. Direktivdə müəyyən edilən təfərrüatların səviyyəsi prosedurdan asılı olaraq dəyişir.

Direktivə həmçinin satınalan təşkilatın (müvafiq olduğu təqdirdə) müsabiqə prosedurları ilə birlikdə istifadə edə biləcəyi satınalma vasitələrini əhatə edən müddəalar daxildir. Bunlar çərçivə müqavilələri, elektron hərrac və dinamik satınalma sistemləridir.

Satın alan təşkilat yalnız Direktivdə müəyyən edilən xüsusi şərtlər ödəndikdə, müqaviləni "müqavilə haqqında bildirişin əvvəlcədən dərc edilməsi ilə qapalı prosedur" vasitəsi ilə müsabiqəsiz bağlaya bilər. Avropa Ədalət Məhkəməsi (AƏM) təsdiq etmişdir ki, bu şərtlərin ödənməsi şəraiti dar çərçivədə təfsir edilir və müqavilənin müsabiqəsiz təltif edilməsinə yalnız istisna hallarda yol verilməlidir.

## Satınalan təşkilatlar hansı müsabiqə prosedurlarından istifadə edə bilərlər?

Dörd əsas müsabiqə proseduru mövcuddur:

**Açıq prosedur:** Açıq prosedur tək mərhələli prosesdir. Satınalan təşkilat müqavilə fürsəti haqqında elan verdikdən sonra müsabiqədə iştirak etmək istəyən bütün təsərrüfat subyektlərinə tam tender sənədlərini, o cümlədən spesifikasiyaları və müqaviləni təqdim edir. Satınalan təşkilatın elan verdiyi tələblərinin cavabında təsərrüfat subyektləri həm seçimlə (uyğun ixtisas) əlaqədar məlumatları, həm də təklifləri təqdim edirlər. Satınalan təşkilat çoxlu sayda təklif ala bilər; aldığı təkliflərin sayına nəzarət edə bilməz, lakin bütün təkliflərin nəzərə alınması zəruri deyil. Yalnız tələb olunan sənədləri təqdim etmiş, seçim meyarlarına cavab verən, uyğun ixtisasa malik təsərrüfat subyektlərinin təklifləri nəzərə alınır. Təkliflər ən aşağı qiymət və ya iqtisadi cəhətdən ən səmərəli təklif əsasında qiymətləndirilə bilər. Təsərrüfat subyektləri ilə danışıqların aparılmasına icazə verilmir, baxmayaraq ki, satınlaan təşkilat iddiaçıdan təkliflərin müəyyən aspektlərinin izah edilməsini xahiş edə bilər.

**Məhdud iştiraklı prosedur:** Məhdud iştiraklı prosedur iki mərhələli prosesdir. Satınalan təşkilat müqavilə fürsəti haqqında elan verir və təsərrüfat subyektləri iştirak

üçün ərizə təqdim edir, daha sonra seçim mərhələsinə (ilkin ixtisas uyğunluğu qiymətləndirməsi) aid məlumatları təmin edirlər. Bu məlumatlar satınalan təşkilat tərəfindən təsərrüfat subyektlərinin müqaviləni icra etmək üçün müvafiq ixtisasa malik olub-olmadığının və təklif verməyə dəvət ediləcək təsərrüfat subyektlərinin müəyyən edilməsi üçün istifadə edirlər. Satınalan təşkilatın təkliflərini təqdim etməyə dəvət ediləcək təsərrüfat subyektlərinin sayını məhdudlaşdırmasına və növbəti mərhələyə keçirilən təsərrüfat subyektlərinin siyahısını hazırlamasına icazə verilir. Bu o deməkdir ki, bütün uyğun ixtisasa malik təsərrüfat subyektlərinin təklif verməyə dəvət edilməsi mütləq deyil. Satınalan təşkilat seçilmiş və ya növbəti mərhələyə keçənlər siyahısına daxil edilmiş təsərrüfat subyektlərinə təkliflərini təqdim etmələri üçün dəvət, eləcə də spesifikasiyalar və müqavilə daxil olmaqla tender sənədlərini göndərir. Beləliklə, açıq prosedurdan fərqli olaraq, məhdud iştiraklı prosedur satınalan təşkilatın alacağı təkliflərin sayını məhdudlaşdırmasına imkan verir. Təkliflər ən aşağı qiymət və ya iqtisadi cəhətdən ən səmərəli təklif meyarı əsasında qiymətləndirilə bilər. Təsərrüfat subyektləri ilə danışıqların aparılmasına icazə verilmir, baxmayaraq ki, satınlaan təşkilat iddiaçıdan təkliflərin müəyyən aspektlərinin izah edilməsini xahiş edə bilər

**Rəqabət dialoqu proseduru:** Rəqabət dialoqu proseduru iki mərhələli prosesdir. Satınalan təşkilat müqavilə fürsəti haqqında elan verdikdən sonra təsərrüfat subyektləri iştirak üçün ərizə təqdim edir, daha sonra seçim mərhələsinə (ilkin ixtisas uyğunluğu qiymətləndirməsi) aid məlumatları təmin edirlər. Bu məlumatlar satınalan təşkilat tərəfindən təsərrüfat subyektlərinin müqaviləni icra etmək üçün müvafiq ixtisasa malik olub-olmadığının və təklif verməyə dəvət ediləcək təsərrüfat subyektlərinin müəyyən edilməsi üçün istifadə edirlər. Satınalan təşkilatın təkliflərini təqdim etməyə dəvət ediləcək təsərrüfat subyektlərinin sayını məhdudlaşdırmasına və növbəti mərhələyə keçirilən təsərrüfat subyektlərinin siyahısını hazırlamasına icazə verilir. Satınalan təşkilat yalnız növbəti mərhələyə keçənlər siyahısına daxil etdiyi təsərrüfat subyektlərinə iştirak üçün dəvət göndərir, daha sonra bu təsərrüfat subyektləri ilə rəqabət dialoqu mərhələsini başladır. Rəqabət dialoqu mərhələsində, layihənin bütün aspektləri təsərrüfat subyektləri ilə müzakirə edilə bilər, həmçinin prosesin bir hissəsi kimi bəzri həll yollarının ixtisar edilməsi mümkündür. Satınalan təşkilat tələblərinə cavab verən təkliflər alacağından əmin olduqdan sonra, rəqabət dialoqu mərhələsini bağlı elan edir və təsərrüfat subyektlərini təkliflərini təqdim etməyə dəvət edir. Bu prosedur çərçivəsində təkliflər yalnız iqtisadi baxımdan ən səmərəli təklif meyarı əsasında qiymətləndirilə bilər.

**Bildirişin əvvəlcədən nəşr edilməsi ilə qapalı prosedur:** Bildirişin əvvəlcədən nəşr edilməsi ilə qapalı prosedur iki mərhələli prosesdir. Satınalan təşkilat müqavilə fürsəti haqqında elan verdikdən sonra təsərrüfat subyektləri iştirak üçün ərizə təqdim edir, daha sonra seçim mərhələsinə (ilkin ixtisas uyğunluğu qiymətləndirməsi) aid məlumatları təmin edirlər. Bu məlumatlar satınalan təşkilat tərəfindən təsərrüfat subyektlərinin müqaviləni icra etmək üçün müvafiq ixtisasa malik olub-olmadığının və təklif verməyə dəvət ediləcək təsərrüfat subyektlərinin müəyyən edilməsi üçün istifadə edilir. Satınalan təşkilatın təkliflərini təqdim etməyə dəvət ediləcək təsərrüfat subyektlərinin sayını məhdudlaşdırmasına və növbəti mərhələyə keçirilən təsərrüfat subyektlərinin siyahısını hazırlamasına icazə verilir. Satınalan təşkilat yalnız növbəti mərhələyə keçənlər siyahısında olan təsərrüfat subyektlərini danışıqlara dəvət edir. O, ilkin təklifləri alır və növbəti mərhələyə buraxılmış təsərrüfat subyektləri ilə bu təkliflərlə əlaqədar danışıqlara başlayır. Təkliflər ən aşağı qiymət və ya iqtisadi cəhətdən ən səmərəli təklif meyarı əsasında qiymətləndirilə bilər.


The four main competitive procedures
Open procedure
Restricted procedure
Competitive dialogue procedure
Negotiated procedure with prior advertisement
Advertising
Advertising and request to participate
Advertising and request to participate
Advertising and request to participate
Pre-qualification
Pre-qualification
Pre-qualification
Selection
Selection
Selection
Issuing of tender documents
Issuing of tender documents
Issuing of competitive dialogue phase documents
Issuing of invitation to negotiate documents
Competitive dialogue phase
Negotiation phase
Return of tenders
Return of tenders
Return of tenders
Return of tenders
Evaluation of suitability and tenders
Evaluation of tenders
Evaluation of tenders
Evaluation of tenders
Contract award
Contract award
Contract award
Contract award

**Digər ixtisaslaşdırılmış prosedurlar:** Daha ixtisaslaşdırılmış istifadə üçün nəzərdə tutulan digər müsabiqə prosedurları da mövcuddur. Bütün bu prosedurlar proses başlamazdan əvvəl Avropa ittifaqının Rəsmi Jurnalında müqavilə haqqında bildirişin verilməsini tələb edir, həmçinin Saziş prinsiplərinə və ümumi hüquq prinsiplərinə riayət edilməlidir:

- **Subsidiyalaşdırılmış ictimai mənzil tikintisi proseduru:** bu yalnız subsidiyalaşdırılmış ictimai mənzil tikintisi işlərinin təmin edilməsinə yönəlmiş ixtisaslaşdırılmış müqavilə növləri üçün istifadə edilə bilən müsabiqə prosedurudur. Bu halda satınalan təşkilat sonradan ictimai mənzil tikintisi planını hazırlamaq və təqdim etmək üçün yaxın əməkdaşlıq edəcəyi təsərrüfat subyektinin seçilməsi prosesində standart prosedurlarla müqayisədə daha sərbəst olur.

- **İşlərin təminatı üzrə konsessiya proseduru:** bu yalnız işlərin təminatı üzrə konsessiya müqavilələri üçün istifadə edilə bilən müsabiqə prosedurudur. Bu müsabiqə proseduru işlərin təminatı üzrə konsessiyaçının təyin edilməsi üçün irəli sürülən tələblərə daha asanlıqla uyğunlaşdırıla bilir. Bu prosedura subpodratçıların təyin edilməsi ilə əlaqədar konkret tələblər daxildr.

- **Layihələndirmə müsabiqəsi proseduru:** bu, təqdim edilmiş proyektlərin qiymətləndirilməsi üçün münsiflər heyətinin cəlb edilməsini nəzərdə tutan müsabiqə prosedurudur. Prosedur layihələndirmə müqaviləsinin, mükafatların və ya hər ikisinin təqdim edilməsi ilə nəticələnə bilər. Prosedurda istifadə edilməli olan mərhələlər, vaxt müddəti və ya proseslə bağlı ətraflı tələblər yoxdur. Münsiflər heyətinin təşkil edilməsi və fəaliyyəti ilə bağlı qaydalar müəyyən edilməyib. Bu prosedurdan yalnız ictimai işlərin layihələndirilməsi zamanı istifadə edilə bilər və əsasən şəhər və ölkə planlaşdırması, memarlıq və mühəndislik sahələrində tətbiq edilir.

## Hansı müsabiqə proseduru nə vaxt istifadə edilə bilər?

**Açıq və məhdud iştiraklı prosedur:** Satınalan təşkilat öz mülahizəsinə əsasən açıq və ya məhdud iştiraklı proseduru seçə bilər. Bu iki prosedurdan hansının hansı şəraitdə istifadə edilməli olduğu ilə bağlı qanunla tənzimlənən bir şərt mövcud deyil və satınalan təşkilatdan bu iki prosedurdan birinə üstünlük verməsi tələb olunmur, beləliklə, o tam seçim azadlığına malikdir.

**Açıq, yoxsa məhdud iştiraklı? Hansı prosedurun istifadə ediləcəyinin qərarıaşdırılması**

Satınalmanın planlaşdırılmasının bir hissəsi kimi, satınalan təşkilat konkret satınalma üçün hansı prosedurun daha münasib olduğunu ehtiyatla götür-qoy etməlidir. Əksər hallarda seçim açıq və məhdud iştiraklı prosedur arasında edilməli olur.

Söhbət daha mürəkkəb satınalmalardan getdikdə, satınalan təşkilat rəqabət dialoqu proseduru və ya müqavilə haqqında bildirişin əvvəlcədən dərc edilməsi ilə qapalı prosedurdan istifadəsini nəzərə almaq istəyə bilər. İxtisaslaşdırılmış satınalmalar üçün daha sonra bu bölmədə təsvir ediləcək digər prosedurlar əlverişli ola bilər.

**Açıq prosedurun üstünlükləri:** Açıq prosedur rəqabəti mümkün dərəcədə

genişləndirir. Bu həm də ən şəffaf prosedurdur, çünki bu prosedurda heç bir fəaliyyət azadlığı nəzərdə tutulmur. Konkret bir təsərrüfat subyektinin xeyrinə korrupsiya yol verilmə potensialı daha kiçikdir. Ümumiyyətlə desək, təsərrüfat subyektləri arasında gizli sözləşmə ehtimalı azdır.

Qanunla müəyyən edilmiş vaxt limitləri də məhdud iştiraklı prosedurla müqayisədə qısadır.

**Açıq prosedurun mənfi cəhətləri:** Açıq prosedurun istifadəsi zamanı satınalan təşkilatın çəkməli olduğu xərclərin ümumi məbləği yüksək ola bilər, belə ki satınalan təşkilat tender sənədlərini tam şəkildə bütün tərəflərə təqdim etməlidir (baxmayaraq ki, sənədlər elektron formada olarsa, bu xərclər əhəmiyyətli surətdə azala bilər). Maraqlı təsərrüfat subyektlərinin sayı çox olarsa, satınalan təşkilat çoxsaylı ərizələri qiymətləndirməli ola bilər, bu isə həm məsrəflərə, həm də vaxt itkisinə səbəb ola bilər. Bundan əlavə, müqavilə daha mürəkkəb olduqda, nəticədə tender sənədləri standart qaydada hazırlanarsa və daha çox səy tələb edərsə, təsərrüfat subyektləri açıq prosedurda iştirak etməyə daha az həvəs göstərə bilərlər. Rəqabət yüksək olduğundan müsabiqədə uğurun qazanılması ehtimalı aşağı olduqda, tam təkliflərin hazırlanması üçün çəkilən xərclər çəkindirici təsirə malik ola bilər.

**Məhdud iştiraklı prosedurun üstünlükləri:** Təkliflərin verilməsi mərhələsində iştirak edəcək təsərrüfat subyektlərinin sayının məhdudlaşdırılması satınalan təşkilatın xərclərini azalda bilər və qiymətləndirməyə sərf edilən vaxt açıq prosedurla müqayisədə daha az ola bilər. İddiaçıların sayının məhdudlaşdırılması tələblərə cavab verməyən təsərrüfat subyektləri ilə əlaqədar meydana gələn lüzumsuz xərclərdən yayınmağa kömək edə bilər. Bu, həmçinin müqavilənin bağlanmasında daha çox marağı olan təsərrüfat subyektləri tərəfindən daha keyfiyyətli təkliflərin verilməsi və beləliklə də müsabiqənin daha effektiv olması ilə nəticələnə bilər.

**Məhdud iştiraklı prosedurun mənfi cəhətləri:** Fəaliyyət azadlığından dolayı bu prosedur çərçivəsində korrupsiyaya yol verilmə və gizli sğvdələşmə ehtimalı daha yüksəkdir. Qanunla müəyyən edilmiş vaxt limitləri də açıq prosedurla müqayisədə daha uzunmüddətlidir.

## Qabaqcıl təcrübə

Açıq prosedur əsasən standart, mürəkkəb olmayan və kütləvi satınalmalar üçün istifadə edilir.

Satınalan təşkilat iddiaçıların sayının məhdudlaşdırılmasının faydalı olacağını düşündüyü təqdirdə sadə, standart və kütləvi satınalamalar üçün məhdud iştiraklı prosedurdan da istifadə edilə bilər. Məhdud iştiraklı prosedur daha mürəkkəb və qeyri-standart satınalmalar üçün xüsusən əlverişlidir.

Hansı prosedurdan istifadə edəcəyini qərarlaşdıran zaman satınalan təşkilat bir sıra amilləri, o cümlədən prosedurun yerinə yetirilməsi xərclərini, tam, açıq müsabiqənin gətirə biləcəyi mənfəəti, məhdud iştiraklı prosedurun üstünlüklərini, eləcə də korrupsiya və/və ya gizli sövdələşmə ehtimalını nəzərə almalıdır.

**Rəqabət dialoqu və müqavilə haqqında bildirişin əvvəlcədən nəşr edilməsi ilə qapalı prosedur:** Rəqabət dialoqu proseduru və müqavilə haqqında bildirişin əvvəlcədən dərc edilməsi ilə qapalı prosedur yalnız müəyyən edilmiş şərtlər ödənildikdə istifadə edilə bilər. Direktivdə satınalan təşkilatın bu prosedurlardan birini digərindən üstün tutmasını tələb edən hüquqi müddəa yoxdur.

**Rəqabət dialoqu prosedurundan nə vaxt istifadə edilə bilər?** Direktiv rəqabət dialoqu prosedurunun istifadə edilə bilməsi üçün iki şərtin ödənməsini tələb edir: (1) təltif edilməli olan müqavilə "xüsusən mürəkkəb müqavilə"nin tərifinə uyğun gəlməlidir və (2) satınalan təşkilat nə açıq prosedurun, nə də məhdud iştiraklı prosedurun istifadəsinin müqavilənin təltif edilməsi imkanı yaratmayacağını qənaətinə gəlmiş olmalıdır.

**Müqavilə haqqında bildirişin əvvəlcədən dərc edilməsi şərti ilə qapalı prosedur nə zaman istifadə edilə bilər?** Direktiv bu prosedurun hansı azsaylı şəraitlər daxilində istifadə edilə biləcəyini və tətbiq edilməli olan şərtləri müəyyən edir. Belə şərait iki variantda meydana gələ bilər: (1) daha əvvəl müsabiqə proseduru keçirilmiş, lakin uğurla nəticələnməmişdir (2) daha əvvəl müsabiqə prseduru keçirilməmişdir. Şərait və şərtlərə aşağıdakı kimi icmal verilə bilər:

- **Daha əvvəl müsabiqə proseduru keçirilmiş və normalara cavab verməyən, qeyri-məqbul təkliflər alınmışdır.** Bu, açıq, məhdud iştiraklı və ya rəqabət dialoqu prosesi nəticəsində normalara cavab verməyən və ya qeyri-məqbul təkliflərin alındığı hallarda işlərin, xidmətlərin və malların satın alınması müqavilələrinə şamil edilir, lakin sonrakı prosedur zamanı müqavilənin ilkin şərtlərinin əsaslı surətdə dəyişdirilməməsi şərti ilə.

> **Nümunə:**
>
> Səhiyyə sektorunda fəaliyyət göstərən hər hansı satınalan təşkilat rentgen cihazlarının təchizatı müqaviləsi üçün məhdud iştiraklı satınalma prosesi həyata keçirir. Dörd təklif təqdim edilir, lakin bütün təkliflərdə yolverilməz hesab edilən xırda kənara çıxmalar var.
>
> Sarınalan təşkilat qapalı prosedur haqqında elan verir və həmin təklifləri təqdim etmiş təsərrüfat subyektlərini yeni təklif verməyə dəvət edir, lakin bu zaman ilkin müqavilə şərtləri dəyişdirilməməlidir.

- **Tam qiymətin əvvəlcədən müəyyən edilməsi mümkün olmadığından müsabiqə proseduru həyata keçirilməyib** Bu, işlərin, xidmətlərin və ya malların mahiyyəti, yaxud onların daşıdıqları risklərlə əlaqədar olaraq tam qiymətin əvvəlcədən müəyyən edilə bilmədiyi hallarda işlərin, xidmətlərin və malların satın alınması müqavilələrinə aiddir. Bu prosedurdan yalnız 'istisna hallarda' istifadə edilə bilər.

> **Nümunə:**
>
> Yerli idarəetmə orqanı şəhərin mərkəzində yeni ofis binasının inşa edilməsi üçün müqavilə bağlamaq istəyir, lakin məlumdur ki, həmin ərazidə tikinti

prosesində qorunması zəruri olan arxeoloji qazıntılar var. Yerli idarəetmə orqanı arxeoloji qalıqların təsirlərdən qorunması ilə əlaqədar olaraq təsərrüfat subyektlərinin tikinti xərcləri və müddəti ilə bağlı riskləri qəbul etməyə nə dərəcədə hazır olduqlarını bilmir. Bu məsələ təsərrüfat subyektləri ilə danışıqların aparılmasını tələb edir.

- **Xidmət müqavilələrinin spesifikasiyaları yetərli dəqiqliklə hazırlana bilmir.** Bu, yalnız müqavilənin spesifikasiyaları açıq və ya məhdud iştiraklı prosedurun tətbiqinə imkan verəcək dəqiqlikdə hazırlana bilmədikdə xidmət müqavilələrinə şamil edilir.

- **İşin satın alınması üzrə müqavilə tədqiqat, sınaq və ya inkişaf məqsədi daşıyır.** Bu yalnız tədqiqat, sınaq və ya inkişaf məqsədləri üçün nəzərdə tutulan və qazancın əldə edilməsinə, yaxud tədqiqat və inkişaf xərclərinin ödənməsinə yönəlməmiş işlərin satın alınması müqavilələrinə şamil edilir.

**Müsabiqə prosedurlarının yerinə yetirilmə qaydaları:** Direktivə müsabiqə prosedurlarının necə yerinə yetirilməli olduğuna dair ətraflı qaydalar daxildir. Bu qaydalar elanın verilməsi, seçim prosesui və meyarları, tender sənədlərinin məzmunu, eləcə də hər bir prosesə tətbiq olunacaq qanunla müəyyən edilmiş vaxt limitləri kimi məsələləri əhatə edir.

**Qanunla müəyyən edilmiş vaxt limitləri:** qanunla müəyyən edilmiş əsas vaxt limitləri müqavilə haqqında bildirişin Avropa İttifaqının Rəsmi Jurnalına göndərilməsindən iştirak haqqında ərizələrin qəbulu üçün təyin edilmiş son tarixə qədər keçməli olan müddət, təkliflərin verilməsi üçün dəvətin göndərilməsindən təkliflərin qaytarılmasına qədər keçən vaxt və müqavilənin təltif edilməsi haqqında qərar verildikdən sonra başlayan moratorium müddəti ilə əlaqədardır. Həmçinin konkret şəraitlərdə təsərrüfat subyektlərinin məlumatla təmin edilməsinə şamil edilən qanunla müəyyən edilmiş vaxt limitləri mövcuddur. Qanunla müəyyən edilmiş vaxt müddətlərinin satınalma prosesinə necə təsir etdiyini, məhdud iştiraklı tender prosesinin nümunəsində hazırlanmış aşağıdakı şəkildə görmək olar.

Müəyyən hallarda, direktivdə əksini tapan bir sıra tələblərin ödənməsi şərti ilə bu vaxt limitlərinin azaldılması mümkündür.

## Kommunal müəssisələr

**Elanın növünün seçilməsi:** Kommunal müəssisələr üç əsas müsabiqə prosedurundan birini seçə bilərlər: açıq prosedur, məhdud iştiraklı prosedur, fərdi dəvətlərin göndərilməsi ilə qapalı prosedur. Kommunal müəssisələr qanunvericilikdə "tender elanı" kimi istinad edilən elanın verilməsi baxımından sərbəstliyə malikdirlər.

**Satınalma prosesinin həyata keçirilməsi:** Dövlət sektorunda satınalmalar haqqənda direktivin müddəalar kommunal müəssisələrin satınalma prosedurları haqqında direktivin müddəalarına nisbətən daha ətraflı, daha dəqiqdir. Məsələn, seçim mərhələsi meyarlarının tam siyahısı yoxdur və təkliflərin qəbul edilməsi üçün müəyyən edilmiş vaxt limitlərinin qarşılıqlı razılığa əsaslanmasına icazə verən müddəalar mövcuddur.

**Restricted procedure – statutory time limits: summary**



## Müqavilə haqqında bildirişin dərc olunması ilə qapalı prosedur

Satın alan təşkilatlar ilk öncə müqavilə haqqında bildirişin AİRJ-də dərc olunması ilə müsabiqə prosesinin keçirilməsinə ehtiyac olduğu qənaətinə varmalıdırlar. Direktivin müddəalarının tam tətbiq olduğu növdə və dəyərdə olan müqavilələrin əvvəlcədən müqavilə haqqında bildiriş verilmədən və ya müqavilə prosesi həyata keçirilməsən təltif edilməsinə icazə verən şərtlər çox məhduddur.

**Xəbərdarlıq!** Avropa Ədalət Məhkəməsinin (AƏM) presedent hüququna görə, müqavilə haqqında bildirişin AİRJ-də dərc edilməsi və müsabiqə prosesinin həyata keçirilməsi öhdəliyinin məhdudlaşdırılmasının mümkünlüyü son dərəcə dar çərçivədə təfsir edilir. Bu yanaşmanı əsaslandıran şərtlərin ödəndiyinin nümayiş etdirilməsinə görə satınalan təşkilat cavabdehdir.

## Müqavilə haqqında bildirişin dərc edilməsi və müsabiqə prosesinin həyata keçirilməsi öhdəliklərinin məhdudlaşdırılması nədir?

Öhdəliklərdən kənara çıxmalar müqavilənin növündən və şəraitdən asılı olaraq dəyişir.

Qısa icmal:

### İşlərin, malların, xidmətlərin satın alınması üzrə dövlət sifarişi müqavilələrinə münasibətdə öhdəliklərin məhdudlaşdırılması:

- **Yalnız normalara uyğun olmaya və qeyri-məqbul təkliflər alınmışdır:** Açıq və ya məhdud iştiraklı prosedur artıq keçirildiyi, lakin, yalnız normalara uyğun olmayan və qeyri-məqbul təkliflər alındıqda, müqavilə şərtlərinin əsaslı surətdə dəyişdirilməməsi şərti ilə.

- **Texniki və ya incəsənətlə bağlı səbəblər, yaxud müstəsna hüquqların qorunması:** Texniki və ya incəsənətlə bağlı səbəblərdən, yaxud müstəsna hüquqlarının qorunması baxımından müqavilə yalnız konkret bir təsərrüfat subyektinə təltif edilə bildikdə.

- **Təxirəsalınmazlıq:** Satınalan təşkilatın proqnozlaşdıra bilmədiyi səbəblərdən açıq və ya məhdud iştiraklı prosedurun keçirilməsi üçün vaxtın qalmaması və ciddi zəruriyyət halında.

### Malların satın alınması üzrə dövlət sifarişi müqavilələrinə münasibətdə öhdəliklərin məhdudlaşdırılması:

- **Yalnız tədqiqat və ya inkişaf məqsədi ilə hazırlanmış məhsullar:** Verilən məhsullar müstəsna olaraq tədqiqat, təcrübə, araşdırma və ya inkişaf məqsədi ilə istehsal edildikdə - lakin rentabelliyin müəyyən edilməsi, yaxud tədqiqat və ya inkişaf xərclərinin ödənməsi üçün nəzərdə tutulmuş kütləvi istehsal bura aid deyil.

- **İlkin təchizatçıdan əlavə xidmətlərin təmin edilməsi:** İlkin təchizatçı tərəfindən normal məhsulların və ya qurğuların əvəzlənməsi, yaxud mövcud malların və ya qurğuların artırılması məqsədilə əlavə xidmətin göstərilməsi: (1) təchizatçının dəyişdirilməsi satınalan təşkilatı istismar və ya texniki xidmətin göstərilməsi zamanı uyğunsuzluğa yaxud qeyri-proporsional texniki çətinliklərə

səbəb ola biləcək yeni material əldə etmək məcburiyyəti qarşısında qoyacağı halda; (2) və bir qayda olaraq belə müqavilələrin, yaxud hər hansı təkrar bağlanan müqavilənin icra müddətinin üç ili ötməməsi şərti ilə.

- **Qiyməti əmtəə bazarında təyin olunan və əmtəə bazarında satın alınan mallar**

- **Malların xüsusi imtiyazlı şərtlər əsasında alınması:** Mallar (1) fəaliyyətini dayandıran bir təchizatçıdan; və ya (2) kreditorlarla razılaşma əsasında, yaxud digər milli qanun və normalara müvafiq qaydada müflislik səbəbi ilə əlaqədar borcalanlardan və təsviyəçilərdən xüsusi imtiyazlı şərtlərlə alındıqda.

## Xidmətlərin satın alınması üzrə dövlət sifarişi müqavilələrinə münasibətdə öhdəliklərin məhdudlaşdırılması:

- **Layihələndirmə müsabiqəsindən sonra:** Uğur qazanmış namizədlərin sayı birdən artıq olduqda, bu namizədlərin hamısı ilə danışıqların aparılmış olması şərti ilə və müqavilə layihələndirmə müsabiqəsi qaydalarına əsasən təltif edilməli olduqda.

## İşlərin və xidmətlərin satın alınması üzrə dövlət sifarişi müqavilələrinə münasibətdə öhdəliklərin məhdudlaşdırılması:

- **Əlavə tələblər:** Bir sıra dəqiq müəyyən edilmiş şərtlərin ödənməsi halında, əvvəlcədən nəzərdə tutulmuş layihəyə və ya ilkin müqaviləyə daxil edilməmiş əlavə işlər və xidmətlər üçün.

- **İşlərin və xidmətlərin təkrarlanması:** Bir sıra dəqiq müəyyən edilmiş şərtlərin ödənməsi halında, ilkin müqavilə çərçivəsində eyni təsərrüfat subyektinə həvalə edilmiş oxşar işlərin və ya xidmətlərin təkrarlanmasından ibarət yeni iş və xidmətlər üçün.

## Əlavə ədəbiyyat siyahısı:

SIGMA Dövlət Satınalmaları haqqında Təlimat Kitabçası